**Muğanlı, Nurəddin**. Qəhrəmanlıq babalardan qalma mirasdır / N. Muğanlı // İki sahil. - 2020. - 11 dekabr. - **№ 222**. - S. 31.

44 günlük Vətən müharibəsində əldə edilmiş şanlı Qələbə Azərbaycan Ordusunun gücünü, əsgər və zabitlərimizin vətənpərvərliyini, xalqımızın məğrurluğunu, yenilməzliyini, igidlik və qorxmazlığını bir daha düşmənə sübut etdi . Qızıl payızın bu günləri ərzində Milli Ordumuzun generalından tutmuş sıravi əsgərinə qədər hamı bir nəfər kimi doğma Vətən uğrunda canından keçməyə köklənmişdi. Qanlı-qadalı döyüşlər bizə babaların mərdlik və qəhrəmanlıq kimi keyfiyyətlərini qanında, ruhunda yaşadan neçə-neçə igid Vətən oğullarını tanıtdı. Cəsarəti, mərdliyi ilə Azərbaycanın ən yeni tarixini qanı ilə yazan belə igidlər cərgəsində Masallının Lürən kəndindən könüllü əsgər Elşən Babayevin də adı var.

Elşənin babası Babayev Babaş Niftalı oğlu İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin qazanılmasına böyük töhfələr vermişdi. Müharibədən sonra Cəlilabad rayonunda Novoqolovka (indiki Uzuntəpə) kəndindəki dəmir yolu stansiyasında işləyən Babaş kişiyə ürək nahiyəsindəki qəlpə yarası ömrünün axırına kimi əziyyət verdi.

Elşən Babayevin həmkəndlisi, yeddi il əvvəl təmas xəttində erməni snayperindən açılan atəş nəticəsində həlak olan Namiq Nəcəf oğlu Həmidovun da babası Rəfiəli Həmidov 1939 – cu ildə cəbhəyə yollanmışdı. 1944 –cü ildə döyüşlərdə böyük qvardiya serjantı kimi qəhrəmanlıq göstərdiyinə görə "İkinci dərəcəli" "Şöhrət" ordeni ilə təltif olunmuşdu. Nəvələr yaxşı bilridilər ki, müharibənin çətin sınaqlarına mərdliklə sinə gərən, od-alovdan çıxan fədakar babaları döyüş meydanlarında həm də doğma Azərbaycanı faşizmdən qorudular. Onların qəhrəmanlıq salnaməsi nəvələr üçün əsl vətənpərvərlik dərsi oldu.

Lürən kəndinin ziylısı Bahaddin Həmidovun dediyinə görə, Namiq də, Elşən də kənd orta məktəbində təhsil almışdı. Əlaçı şagird olmasalar da qəlblərinə tükənməz Vətən sevgisi hakim kəsilmişdi, üçrəngli bayrağımızın müqəddəsliyi önündə diz çökən, dövlətimizin atributlarına hörmət edən say seçmə, qoçaq

oğullardan olublar. İdmana maraq göstərib, hərbi biliklər mənimsəyiblər. Vətəni qorumağı, Vətən naminə mübariz olmağı öyrəniblər.

Damarlarında böyük qəhrəmanlıq və hünər göstərmiş babalarının qanı axan, mayası vətənpərvərlik hisslərindən yoğrulan Elşən Babayev Tovuz hadisələrindən sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətininin Masallı bölməsinə gedərək könüllü kimi qeydiyyatdan keçmişdi. 24 yaşına yenicə qədəm qoyan Elşən subaydır. Müvəqqəti hərbi xidmətdə olarkən cnayper kursu keçmişdi. Aprel döyüşlərində iştirak etmişdi. Əsgər Namiq Həmidovun və onlarla mülki adamın, hətta uşaqların düşmən snayperi ilə qətlə yetirilməsi onu daim narahat edirdi və daxilində düşməndən intiqam almaq hissi yaradırdı. Ona görə də senyabrın 27-dən Qarabağı və ətraf rayonları işğalçılardan azad edən Milli Ordumuzun şərəfli missiyasına o da snayperçi kimi qatıldı. Murovdağ uğrunda döyüşlərdə düşmən gülləsinə tuş gələrək ağır yaralanan Elşən sağaldıqdan sonra yenidən ön cəbhədə döyüşlərə atılmış, Daşaltı, Qırmızı bazar və Şuşa uğrunda döyüşlərdə sücaət göstərmişdir. Hərbi əməliyyatlar zamanı Elşənin sosial şəbəkələrdə paylaşılan şəkillərindən biri Azərbaycana məxsus qızıl yataqlarını talayaraq məşhur "Frank Muller" firmasının təsisçilərindən biri və baş direktoru, İsveçrədə yaşayan erməni əsilli Vartan Sirmakesə məxsus "Artsakhbank"ın binası önündə çəkilmişdir. Şəkilin altından yazılmışdı: “Artıq belə bir bank yoxdur, gorbagor oldu...”

Qeyd edək ki, Vartan Sirmakes keçmiş Ermənistan prezidenti Serj Sarqsyanın fərmanı ilə Ermənistanın Fransadakı baş konsulu təyin olunaraq “Vətən qarşısında xidmətlərinə görə” ordeni ilə təltif edilmişdi. O, Azərbaycanın Zəngilan bölgəsindəki Veynəli və Kəlbəcərdəki Söyüdlü qızıl yataqlarında qanunsuz layihələr həyata keçirib. Onun adı çəkilən yataqlardan 2009-2017-ci illər ərzindəki qanunsuz istismarından 300 milyon manatdan çox gəlir əldə etdiyi vurğulanır. Beynəlxalq miqyasda bu cinayət, maliyyə fırıldaqçılığı və qanunsuz biznes sayılır...

Bəli, 44 günlük Vətən müharibəsi Elşən kimi igid oğulların Vətənə sədaqətini sınağa çəkdi. Azərbaycan xalqı gələcəyə belə cəsur və qeyrətli övladları ilə gedir. Şuşa şəhəri uğrunda əməliyyatda iştirak edən Elşən kimi döyüşçülərimizin misilsiz qəhrəmanlığını vəsf etmək üçün söz belə gücsüzdür. Hazırda ölümdən qorxmadan, sağlamlığını itirmək bahasına olsa belə Vətən, torpaq, uğrunda mübarizə aparan könüllü əsgərimiz Elşən Babayevin ailəsi, doğulduğu kənd Qələbə paradından sonra onun yolunu gözləyir.

Eşq olsun qüdrətli ordumuzun cəsur zabit və əsgərlərinə! Qələbə paradın mübarək, Azərbaycan!

**Nurəddin Muğanlı,** *"İki sahil"*